

■ ƏBÜLFƏZ ÜLVİ

## ANAMIN

*Anaların əziz xatirəsinə*

Saçları ağarıb birçəyi kimi,
Alça ağacının çiçəyi kimi,
Yanağı lalənin ləçəyi kimi,
Dodağı püstədir, püstə anamın.

Güllərə aç deyir, qəlbdən gülüşü,
Arı bu gülə də edir yürüşü,
Dünyadan böyükdür, dünyagörüşü,
Tayı yox, saf niyyət, hissdə anamın.

Bəli, ülvi olub sözü dünyada,
Bunu təsdiq edir özü dünya da,
İndi olmasa da özü dünyada,
Yeri gözlərimin üstdə anamın.

## AZAN SƏSİ

Yaradanım, sanki verir nəfəsin,
Qəlbə hopur, baxma hərdən oxunur.
Özü uca olduğundan bu səsin,
Həmişə uca Minarədən oxunur.

Bir üzündə saf arzu-kam, saf dilək,
Etibardır, etiqaddır bir üzü.
Şər olmazdı, məhəbbətin himni tək,
Bu nəğməni oxusaydı yer üzü.

Sönər, dilim bunu dərdə oxusa,
Möcüzəsi, sehri var bu avazın.
Bundan sonra min illər də oxusa,
Sala bilməz bu tona  Qu, avazın.

Döyüntüsü, xoş ritmidir qəlbimin,
Bu səs üstə ömür tapır yaz anın.
Gör nə qədər rəğbəti var Rəbbimin,
Özü durur keşiyində Azanın.

## NƏFSİNİ ÖLDÜRƏN

Nəfisi bütövlük yıxar dağı da,
Nəfsilə gözlər də kölgəyə gəlir.
Bəzi vaxt insanın insanlığı da,
Nəfsin ölçüsüylə, ölçüyə gəlir.

Nəfsin əlində biçarə qalmaq,
Ürəyə dərd, qada salmaq kimidir.
Nəfis üzərində qələbə çalmaq,
Düşmənə qələbə çalmaq kimidir.

Tamahdan, nəfisdən alanda buyruq,
Elə bil, köhnəlmiş çul olur insan.
Qul olmaq deyildir, sevgiyə qulluq,
Nəfsə qul olanda, qul olur insan.

Səhvini düzəltmək suç, günah deyil,
Səhv vardır, Tanrı da əfv  edə bilir.
Ləyaqət nəfisi islah eyləyir,
Nəfis ləyaqəti məhv edə bilir.

İşə bax, gör nə xoş, nə ar sayılır,
Nəfis ömrümüzdən bac alır, ancaq.
Nəfəsi  öldürən qəddar sayılır,
Nəfsini öldürən ucalır ancaq.

## QARDAŞIM

Nə qədər mən sənə qardaş deyirəm,
Yenə də baxırsan çaş-çaş, qardaşım.
Görünür sən şərsən, mənsə xeyirəm,
Biz ola bilmərik sirdaş, qardaşım.

Hopmasa yaz adlı fəsil dostluğa,
Biz verə bilmərik nəsil dostluğa,
Əsil insanlığa, əsil dostluğa,
Nə göz rol oynayır, nə qaş, qardaşım.

Səy etmə kirpikdə qəm, yaş olmağa,
Məcnunu satırsan, Balaş olmağa,
Vallah istəsək də yoldaş olmağa,
Nə yol razı olar, nə daş, qardaşım.

Günəş əbədidir, odu çəkilməz,
Alovla təndirin badı çəkilməz,
Şərəf dəftərində adı çəkilməz,
Kim qursa tənədə bardaş, qardaşım.

## LƏNƏT DEMİSƏN

Eşitdim arxamca lənət demisən,
Çoxdan qazanıbdır öz halın bunu.
Sən özün büsbütün lənət kimisən,
Hamıya yaymaqmı xəyalın bunu?

Qismətin olacaq lənət özünün,
Axı tutduğun dərd, nə dərd sayılır?
Məğzini bilməyən namərd sözünün,
Özü namərddən də namərd sayılır.

Cana doydurubdur hamını nəhsin,
İlan zəhərini dilindən alır.
Müqəddəs üzünə ağ olan kəsin,
Nəyi var ulu Rəbb əlindən alır.

Nahaq lənətləri işə az keçir,
Sən özün iyirmi qatın alırsan.
Nakəs cəhənnəmə öləndə köçür,
Sən onu dirikən satın alırsan.

Başına salmağa özün daş ayır,
Sənin dərin yoxdur, göndən qatın var.
Deyirlər quduran qırx gün yaşayır,
Say gör neçə günlük ehtiyatın var.

## QAŞLARIN

Məni görüb, özün düyün salıbdır,
Nə eyləyim, gülsün qara qaşların?
Yəqin ondan xəncər şəkli alıbdır,
Ürəyimi edə para qaşların.

Can alsa da, gözlərinin çəpi yox,
Xislətinin yoxsa gülmək təbi, yox?
Ağacı yox, kəndiri yox, ipi yox,
Necə çəkir məni dara qaşların.

Mən sanmıram görünən tək soyuqsan,
Nə verəcək sənə solsam, soluxsam,
Ən qorxulu bir mərəzə yoluxsam,
Bəs eyləyər edə çara, qaşların.

Ülvi, düzdür, əsir bir az əllərim,
Amma deyil əqli dayaz, əllərim,
Bəlkə sanır, dinc dayanmaz əllərim,
Keşik çəkir bir cüt nara, qaşların?

## SƏNƏ GÖRƏ

Ay çiçəyim, yaşadığım günləri,
Sən doğulan günə görə sevmişəm.
Qulağımda yuva quran ünləri,
Nəbzin verən ünə görə sevmişəm.

Eşq bağıma, eşqin verib, barı da,
Könlün çalıb, könlüm çalan tarı da,
İsmətindən ağlıq alan qarı da,
Saçındakı dənə görə sevmişəm.

İnamına inamımla baxmışam,
Anlamına, anlamımla baxmışam,
Mən dinimə, imanımla baxmışam,
İmanı da, dinə görə sevmişəm.

Qoy söyləyim, söylədiyim lap arsa,
Sirr qalmasın dünya məni qovarsa,
Fəqət, sevgi siyahımda nə varsa,
Hamısını, sənə görə sevmişəm.

## ADİ YAŞ DEYİLDİR

Bilmirəm, özün de, nə olub axı,
Yenə yaş gözündə giləlenibdi.
Sanki vüsal haqda gördüyün yuxu,
Həsrətlə döyüşdə güllələnibdi.

Hardan peyda olub ahı-zar yeri,
Axı hər əzabı çəkir gözlərin.
Elə bil tapmayıb intihar yeri,
Damlalar kirpikdən asır özlərin.

Axdıqca, sanarsan çevrilir lələ,
Yaxşıca anlayır özü, nə umur.
Bu su nə sudursa, sel olsa belə,
Sevdaya toxunmur, sevgini yumur.

Silmə, o ruhudur, bəlkə zamanın,
Belə yaş silinsə, göz nuru azır.
Adi yaş deyildir bu yaş, a canım,
O, gözə məhəbbət himnini yazır.

## BÖYÜK ƏSƏR

Məni təbrik etdin bu gün, gülərüz,
Erkən, ala toran ayrılmamışdı.
Heç bir şirin kəlmə, heç bir şirin söz,
Ruhuma bu qədər yayılmamışdı.

Oldun ürəyimə, qəlbimə şərik,
Dilin, ixtiyarı dilimdən aldı.
İşə bax, bir cümlə, boyalı təbrik,
Canımda nəyim var, əlimdən aldı.

Ağlımı başımdan aldın sadəcə,
Yanar bir təndirin badına düşdüm.
Sən məni yadına saldın, sadəcə,
Mən sənin məhəbbət oduna düşdüm.

## TƏKCƏ YURD SALMIŞDIN...

Dediyin o sevda çən aləmiydi,
Elə çən kimi də çəkildi, getdi.
Demə baxışın da yamaq kimiydi,
Sapı çürük çıxdı, söküldü, getdi.

Həm eşqi od sandın, həm oldun dönük,
Alovun göründü küldən də sönük.
Nə oldu, sevginə dediyin, böyük,
Deyinə, deyinə kiçildi, getdi?

Verdiyin könül də könül, olmadı,
Ödül sandıqların, ödül olmadı,
Sən salan bağçada bir gül olmadı,
Nəydisə, alaq tək  biçildi, getdi.

